**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Elmi Şuranın iclas protokolundan çıxarış**

**Tarix:** 29 dekabr 2023-cü il

**No:** 12

**İŞTİRAK EDİRDİ:** Elmi Şuranın 89 üzvündən 73 nəfər

**GÜNDƏLİKDƏKİ MƏSƏLƏ:** **BDU-nun akkreditasiya qiymətləndirilməsinə dair Akkreditasiya Komissiyasının Yekun Hesabatında göstərilən tövsiyə və göstərişlərin icrasının təmin edilməsi məqsədilə BDU-nun 5 (beş) illik və 1 (bir) illik fəaliyyət planları haqqında**

**EŞİDİLDİ:** Elmi Şuranın üzvü, rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov çıxış edərək bildirdi ki, BDU-nun akkreditasiya qiymətləndirilməsinə dair Akkreditasiya Komissiyasının Yekun Hesabatında yeddi istiqamətdə tövsiyə və göstərişlərin icrasının təmin edilməsi məqsədilə BDU-nun 2023/2024-2027/2028-ci tədris illəri üzrə 5 (beş) illik və 1 (bir) illik fəaliyyət planları hazırlanmışdır. Fəaliyyət planlarında hər bir tövsiyə və göstərişlər üzrə icra ediləcək fəaliyyətlər – Strateji İnkişaf Planı (SİP) üzrə görüləcək işlərin həyata keçirilməsi üçün illik fəaliyyət planlarının maraqlı tərəflərin iştirakı ilə hazırlanılması və icrası; müvafiq illik fəaliyyət planları əsasında struktur bölmələrdən hesabatların alınması, monitorinqinin təşkili və nəticələrinin müzakirəsi, eləcə də nəticələrə görə tədbirlərin görülməsi; SİP-i ilə bağlı əldə olunan yarımillik və illik hesabatların nəticələrinin daxili və xarici maraqlı tərəflərlə kommunikasiyasının təşkili; müvafiq planın tərtibi və təsdiqi; keyfiyyət təminatı üzrə yeni strukturun yaradılması və alt strukturların formalaşdırılması; Keyfiyyət Təminatı Komissiyasının formalaşdırılması və əsasnaməsinin müvafiq qaydada təsdiq olunması; Keyfiyyət Təminatı Mərkəzinin əməkdaşlarının müxtəlif mövzularda təlimlərə cəlb olunması; Keyfiyyət Təminatı Mərkəzinin əsasnaməsinin və müvafiq şöbələrin əsasnamələrinin hazırlanması və müvafiq qaydada təsdiqi; keyfiyyət təminatı istiqamətində fəaliyyət göstərəcək əməkdaşların vəzifə təlimatlarının hazırlanması və müvafiq qaydada təsdiqi; tədrisin təşkili, elmi-tədqiqat fəaliyyətləri, beynəlmiləlləşmə və s. üzrə keyfiyyət təminatı mexanizmlərinin formalaşdırılması; akademik heyətin fəaliyyətinin

ƏSLİ İLƏ DÜZDÜR

qiymətləndirilməsi mexanizminin və metodologiyasının, eləcə də meyarlarının formalaşdırılması, müvafiq qaydada təsdiq olunması və icrası; sağlamlıq imkanları məhdud olan tələbələrin tədris prosesində iştirak etmələri üçün mövcud vəziyyətin təhlillərinin aparılması və nəticələr əsasında fəaliyyət aparılması; elektron sənəd dövriyyəsinin qurulması; elektron insan resurslarının idarə olunması sisteminin qurulması; elektron tədris sisteminin qurulması; internet bağlantısının yaxşılaşdırılması və texnoloji infrastrukturun təkmilləşdirilməsi; əlavə resurslar əldə etmək və tədris və təlim mühitini yaxşılaşdırmaq üçün yerli və xarici qurumlar və ali təhsil müəssisələri arasında əməkdaşlığın artırılması; dərsliklərə, elmi mənbələrə və elmi məlumat bazalarına ayrılan vəsaitlərin artırılması; mühazirə və seminar otaqlarının yeni proyektor və smart lövhələrlə, eləcə də kompüter laboratoriyalarının əlavə kompüterlərlərlə təchiz olunması; tədris sənədlərinin hazırlanması ilə bağlı təlimlərin təşkili və müvafiq təlimatların hazırlanması; sillabusların nümunəvi formasının və tərtibi qaydasına dair təlimatın hazırlanması; təhsil proqramlarında nəzərdə tutulan ali məktəb tərəfindən təyin olunan seçmə fənlərin və onlara qoyulan kompetensiyaların əmək bazarının tələblərinə uyğun olaraq yenilənməsi; illik özünütəhlil hesabatlarının hazırlanması üçün təlimlərin təşkili; vakant vəzifələrə təyinatların aparılması və s. öz əksini tapmış, icra ediləcək hər bir fəaliyyət üzrə icra müddəti, icraya məsul struktur bölmələri, hədəf və nəticə indikatorları göstərilmişdir.

Çıxış edənlər (Fərda İmanov, Hüseyn Məmmədov, Aydın Kazımzadə) fəaliyyət planlarının mövcud qaydalara uyğun şəkildə tərtib olunduğunu qeyd etdilər və səsə qoyulmasını təklif etdilər.

**Təklif səsə qoyuldu və yekdilliklə qəbul olundu.**

**QƏRARA ALINDI:** **BDU-nun akkreditasiya qiymətləndirilməsinə dair Akkreditasiya Komissiyasının Yekun Hesabatında göstərilən tövsiyə və göstərişlərin icrasının təmin edilməsi məqsədilə BDU-nun 5 (beş) illik və 1 (bir) illik fəaliyyət planları təsdiq edilsin.**

**Elmi Şuranın sədri** **Elçin Babayev**

**Elmi katib** **Vaqif Salmanov**

SƏNƏDLƏR VƏ MÜRACİƏTLƏRLƏ İŞ ŞÖBƏSİ

ƏSLİ İLƏ EYNİDİR

**Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasının təmin edilməsi məqsədilə Bakı Dövlət Universitetində**

**2023/24-cü tədris ilində nəzərdə tutulmuş tədbirlərə dair illik**
**FƏALİYYƏT PLANI**

| İstiqamət | Tövsiyə | İcra ediləcək fəaliyyət | İcra müddəti *(başlanma və bitmə tarixi)* | İcraya məsul struktur(lar) | Hədəf indikatoru | Nəticə indikatoru | İcra vəziyyəti *(icra olunub, icra olunmayıb, icradadır)* | Fəaliyyətin icrası üçün ayrılan resurs(lar) *(İnsan, maliyyə, infrastruktur və* |
|---|---|---|---|---|---|---|---|---|
| I istiqamət | Risklərin hesablanması, proqnozlaşdırılması, eləcə də idarə olunmasına dair planın tərtib edilməsi | Müvafiq planın tərtibi və təsdiqi | 2023 sentyabr-2024 dekabr | Rektorun strateji inkişaf və əlaqələr üzrə müşaviri; Müvafiq struktur bölmələr. | Müvafiq planın tərtibi və SİP-in hazırlanması zamanı nəzərə alınması | Müvafiq qaydada hazırlanmış və təsdiqlənmiş plan | icradadır | 10 əməkdaş (Rektorun strateji inkişaf və əlaqələr üzrə müşaviri, müvafiq struktur bölmələr) |
| II istiqamət | Şöbənin strukturuna yenidən baxılması, fəaliyyətlər (monitorinq, təhlil və s.) üzrə alt strukturların formalaşdırılması | Keyfiyyət təminatı üzrə yeni strukturun yaradılması və alt strukturlarının formalaşdırılması | 2023 sentyabr-2024 yanvar | Elmi Şura; Rektor | Keyfiyyət təminatı strukturunun yenidən formalaşdırılması | Keyfiyyət təminatı mərkəzi və alt strukturlarının müvafiq qaydada təsdiqlənmiş əsasnamələri | icra olunub | Elmi Şura; Rektor |
| II istiqamət | Keyfiyyət təminatı komissiyasının təşkil olunması və fəaliyyətinin səmərli təşkili | Keyfiyyət təminatı komissiyasının formalaşdırılması və əsasnaməsinin müvafiq qaydada təsdiq olunması | 2023 sentyabr-2024 iyun | Elmi Şura; Keyfiyyət təminatı mərkəzi. | Keyfiyyət təminatı komissiyasının yaradılması və fəaliyyətinin səmərəli təşkil olunması | Keyfiyyət təminatı komissiyasının əsasnaməsi və fəaliyyət planı | icradadır | 4 əməkdaş (Rektorun keyfiyyət təminatı üzrə müşaviri, Keyfiyyət təminatı mərkəzinin direktoru, Monitorinq, təhlil və akkreditasiya şöbəsinin müdiri, Təlim, metodiki dəstək və inkişaf şöbəsinin müdiri) |
| II istiqamət | Keyfiyyət strukturu üzrə əməkdaşların peşəkar bacarıqlarının artırılması | Keyfiyyət təminatı mərkəzinin əməkdaşlarının müxtəlif mövzularda təlimlərə cəlb olunması | 2023 sentyabr-2024 yanvar | Keyfiyyət təminatı mərkəzi; Təlim, metodik dəstək və inkişaf şöbəsi. | Keyfiyyət təminatı mərkəzində fəaliyyət göstərən əməkdaşların peşəkar bacarıqlarının artırılması istiqamətində təlimlərin təşkili | Peşəkar inkişaf təlimlərinə cəlb olunmuş əməkdaşların sayı | icradadır | 7 əməkdaş (Keyfiyyət təminatı mərkəzinin direktoru, Təlim, metodik dəstək və inkişaf şöbəsinin müdiri, Şöbə əməkdaşları) |
| II istiqamət | Digər strukturların keyfiyyət təminatı mexanizmləri üzrə qarşılıqlı əlaqələrinin və məsuliyyət bölgülərinin müəyyən edilməsi | 1. Keyfiyyət təminatı mərkəzinin əsasnaməsinin və müvafiq şöbələrin əsasnamələrinin hazırlanması və müvafiq qaydada təsdiqi; 2. Keyfiyyət təminatı istiqamətində fəaliyyət göstərəcək əməkdaşların vəzifə təlimatlarının hazırlanması və müvafiq qaydada təsdiqi. | 2023 sentyabr-2024 iyul | Elmi Şura; Rektor; Keyfiyyət təminatı mərkəzi; İnsan resursları və hüquq şöbəsi. | Strukturlar arasında keyfiyyət təminatı mexanizmləri üzrə qarşılıqlı məsuliyyət bölgülərinin müəyyənləşdirilməsi | Müvafiq əsasnamələr; Müvafiq vəzifə təlimatları; Müvafiq fəaliyyət planları. | icradadır | 5 əməkdaş (Keyfiyyət təminatı mərkəzinin direktoru, Monotorinq, təhlil və akkreditasiya şöbəsinin müdiri, Təlim, metodik dəstək və inkişaf şöbəsinin müdiri, İnsan resursları və hüquq şöbəsinin müdiri) |
| III istiqamət | Əlavə resurslar əldə etmək və tədris və təlim mühitini yaxşılaşdırmaq üçün digər yerli və xarici qurumlar və ali təhsil müəssisələri ilə əməkdaşlığın artırılması | Əlavə resurslar əldə etmək və tədris və təlim mühitini yaxşılaşdırmaq üçün yerli və xarici qurumlar və ali təhsil müəssisələri arasında əməkdaşlığın artırılması | 2023 sentyabr-2028 sentyabr (müntəzəm) | Beynəlxalq əlaqələr üzrə prorektor; Strateji inkişaf və əlaqələr üzrə rektor müşaviri; Beynəlxalq əlaqələr şöbəsi; Fakültə və kafedralar. | Yerli və xarici qurumlar və ali təhsil müəssisələri arasında əməkdaşlıq müqavilələrinin imzalanması və müvafiq müqavilələr çərçivəsində fəaliyyətin təşkili. | İmzalanmış əməkdaşlıq müqavilələrinin sayı | icradadır | 19 əməkdaş (Beynəlxalq əlaqələr üzrə prorektor, Strateji inkişaf və əlaqələr üzrə rektor müşaviri, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Fakultələr) |
| III istiqamət | Struktur bölmələrə tədris sənədlərinin hazırlanması ilə bağlı təlimlərin keçirilməsi və müvafiq təlimatların hazırlanması | Tədris sənədlərinin hazırlanması ilə bağlı təlimlərin təşkili və müvafiq təlimatların hazırlanması | 2023 sentyabr-2024 dekabr | Keyfiyyət təminatı mərkəzi; Tədrisin təşkili və idarəolunması mərkəzi. | Tədris sənədlərinin hazırlanması ilə bağlı təlimlərin təşkili və təlimatların hazırlanması | Hazırlanmış təlimatlar və təlimə cəlb olunmuş əməkdaşların sayı | icradadır | 3 əməkdaş (Keyfiyyət təminatı mərkəzinin direktoru, Tədrisin təşkili və idarəolunması mərkəzinin direktoru, Təlim, metodik dəstək və inkişaf şöbəsinin müdiri) |
| III istiqamət | Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının artırılması | 1.Sillabusların nümunəvi formasının və tərtibi qaydasına dair təlimatın hazırlanması; 2.Müvafiq məsələyə dair təlimlərin təşkili | 2023 sentyabr-2024 dekabr | Keyfiyyət təminatı mərkəzi; Tədrisin təşkili və idarə olunması mərkəzi; Fakültə və kafedralar. | Təlim nəticələrinin əldə edilməsinə nəzarət təşkili | Sillabusun təsdiqlənmiş nümunəvi forması; Təlimat; Təlimə cəlb olunmuş əməkdaş sayı | icradadır | 20 əməkdaş (Keyfiyyət təminatı mərkəzinin direktoru, Tədrisin təşkili və idarə olunması mərkəzinin direktoru, Monotorinq, təhlil və akkreditasiya şöbəsinin müdiri, Təlim, metodik dəstək və inkişaf şöbəsinin müdiri, Fakultələr) |
| III istiqamət | Təhsil proqramlarının icrasına dair illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması | İllik özünütəhlil hesabatlarının hazırlanması üçün təlimlərin təşkili | 2023 sentyabr-2028 sentyabr (müntəzəm) | Keyfiyyət təminatı mərkəzi; Tədrisin təşkili və idarə olunması mərkəzi, Fakültə dekanları və kafedralar. | Özünütəhlil mədəniyyətinin formalaşması | Hazırlanmış özünütəhlil hesabatları | icradadır | 20 əməkdaş (Keyfiyyət təminatı mərkəzinin direktoru, Tədrisin təşkili və idarə olunması mərkəzinin direktoru, Monotorinq, təhlil və akkreditasiya şöbəsinin müdiri, Təhlil, metodik dəstək və inkişaf şöbəsinin müdiri, Fakültə dekanları) |
| IV istiqamət | İdarəetmənin effektiv təşkili üçün vakant vəzifələrə təyinatların aparılması | Vakant vəzifələrə təyinatların aparılması | 2023 sentyabr-2028 sentyabr (müntəzəm) | Rektor; İnsan resursları və hüquq şöbəsi; | Vakant vəzifələrə təyinatların aparılması | Təyin olunmuşların sayı | icradadır | 2 əməkdaş (Rektor, İnsan resursları və hüquq şöbəsinin müdiri) |
| V istiqamət | Beynəlxalq reytinq bazalarında irəliləyişə nail olmaq | Beynəlxalq reytinqlərdə iştirak etmək və həmin reytinqlərədə nəzərdə tutulan meyarlara uyğun fəaliyyət planları hazırlamaq və fəaliyyət planına uyğun görüləcək işlərin vaxtında yerinə yetirilməsinə nəzarət etmək | 2023 sentyabr-2028 yanvar (müntəzəm) | Beynəlxalq əlaqələr üzrə prorektor; Elm və innovasiyalar üzrə prorektor; Keyfiyyət təminatı mərkəzi; Beynəlxalq əlaqələr şöbəsi; Elmi fəaliyyətin təşkili və innovasiyalar mərkəzi. | Beynəlxalq reytinqlərdə iştirak etmək və həmin reytinqlərədə nəzərdə tutulan meyarlara uyğun illik fəaliyyət planları hazırlamaq | Beynəlxalq reytinq göstəriciləri; Fəaliyyət planları | icradadır | 5 əməkdaş (Beynəlxalq əlaqələr üzrə prorektor, Elm və innovasiyalar üzrə prorektor, Keyfiyyət təminatı mərkəzinin direktoru, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Elmi fəaliyyətin təşkili və innovasiyalar mərkəzinin direktoru) |
| VII istiqamət | Veb səhifənin təkmilləşdirilməsi | Universitetin veb səhifəsinin yenidən qurulması | 2023 sentyabr-2024 dekabr | Rektorun rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri İnformasiya texnologiyaları mərkəzi; İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi. | Universitetə dair məlumatların əlçatanlığını təmin etmək | Universitetin veb səhifəsinin funksionallığı və məlumatların əhatəliliyi | icradadır | 5 əməkdaş (Rektorun rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri, İnformasiya texnologiyaları mərkəzi direktoru,İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi) |
| VII istiqamət | Beynəlmiləlləşdirmə səylərinin monitorinqi və qiymətləndirilməsi üçün planın hazırlanması | Beynəlmiləlləşdirmə səylərinin monitorinqi və qiymətləndirilməsi üçün daha əhatəli plan hazırlamaq | 2023 sentyabr-2024 dekabr | Keyfiyyət təminatı mərkəzi; Beynəlxalq əlaqələr şöbəsi. | Beyəlmiləlləşmə istiqamətində fəaliyyətlərin monitorinqlərinin təşkili | Monitorinq və qiymətləndirilmə planı | icradadır | 2 əməkdaş (Keyfiyyət təminatı mərkəzinin direktoru, Beynəlxalq əlaqələr şöbəsinin müdiri) |